# KİMYƏVİ REAKSİYALAR ZAMANI ENERJİ DƏYİŞMƏSİNİN ÖYRƏNİLMƏSİNDƏ TERMODİNAMİKANIN ROLU

**M.S. Nuriyeva**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**Enerji** – iş görmək qabiliyyətidir.
**Kimyəvi sistemin enerjisi** – sistemdəki hissəciklərin kinetik və potensial enerjilərinin cəminə bərabərdir.

**Kinetik enerji:** Hissəciklər fırlanma, titrəyiş və daxil olduğu hərəkət nəticəsində kinetik enerjiyə malik olur. Sistemin temperaturundan asılı olaraq sistemdəki hissəciklərin enerjisi müəyyən qiymətlər diapazonuna malik olur. Bu qiymətləri Maksvel paylanması adlanan diaqramda təsvir etmək olar:







Sistemin istiliyi, sistemin ümumi enerjisinin (kinetik və potensial) göstəricisidir. O, entalpiya adlanır və H işarəsi ilə işarələnir. Sistemin bütün hissəciklərinin bütün enerjilərini entalpiya ilə ölçmək mümkün deyil. Ona görə də standart şəraitlərdə 298 K temperaturda və 1 atm (101,3 kPa) təzyiqdə elementlərin entalpiyasının sıfır olduğu qəbul edilmişdir. Buna görə də entalpiya dəyişməsini ΔH, standart entalpiya əsasında ölçmək olar.

Sistemin temperaturu – sistemdə hissəciklərin kinetik enerjisinin orta ölçüsü olub ixtiyari vahidlər şkalası ilə ifadə edilir. Beləliklə, $kinetik\ enerji = \frac{1}{2}mv^2$

Temperaturlar fərqi sistemin enerjisinin hansı istiqamətdə dəyişəcəyini göstərir. İstilik həmişə daha çox qızdırılmış cismdən, daha az qızıdırılmış cismə verilir.

**Potensial enerji** – sistemdəki vəziyyətindən asılı olaraq hissəciklər potensial enerjiyə malik olur. Qarşılıqlı cəzb olunan hissəciklərin yaxınlaşması onların potensial enerjisini azaldır:




**Endotermik və ekzotermik reaksiyalar.**

İstiliyin ayrılması ilə gedən reaksiyalara ekzotermik reaksiyalar deyilir. Ekzotermik reaksiyalarda sistem temperaturu ətraf mühitə verir və onu qızdırır. Ona görə də ekzotermik reaksiyalarda entalpiya dəyişməsi mənfi qiymət alır. $\Delta H<0$; $\Delta H = -Q$; $\Delta H$- entalpiya dəyişməsi; Q- ekzotermik reaksiyalarda ayrılan istilikdir.




Endotermik reaksiyalarda sistem ətraf mühitdən istilik alır, onu soyudur. Bu halda entalpiya dəyişməsi müsbət qiymət alır: + $\Delta H$.




**Standart entalpiya dəyişməsi:**

Entalpiyanın müxtəlif dəyişmələrini müqayisə etmək üçün sistemin digər parametrləri mütləq sabit qalmalıdır, standart entalpiyanın bütöv dəyişməsi maddənin standart şəraitdə (298 K temperaturda, 1atm (101,3 k Pa) təzyiqdə 1 moluna görə müəyyən edilir. Standart entalpiyanın qiymətinin dəyişməsinin ən mühüm növləri aşağıda verilmişdir:

**İonlaşma enerjisi** - qaz fazada 1 mol hissəcikdən 1 mol elektron qopduğu halda entalpiya dəyişməsidir.

**Atomlaşma entalpiyası** – standart şəraitdə 1mol qaz atomlarının əmələ gəlməsi ilə müəyyən edilir. Atomlaşma enerjisi $\Delta H^0_{at}$ ilə işarə edilir.

**Əmələgəlmə entalpiyası** – standart şəraitdə maddənin 1 molunun, onu təşkil edən elementlərdən əmələ gəlməsi zamanı entalpiya dəyişməsi ilə müəyyən edilir. Başqa sözlə maddənin 1 molunun bəsit maddələrdən əmələgəlməsi zamanı entalpiya dəyişməsi əmələgəlmə entalpiyası adlanır və $\Delta H^0_{ə.g}$ ilə işarə edilir (vahidi kC/mol)

**Yanma entalpiyası** – maddənin 1 molunun kifayət qədər oksigendə tam yanması zamanı entalpiya dəyişməsi ilə müəyyən edilir və $\Delta H^0_y$ ilə işarə olunur.

**Qəfəs entalpiyası** – kristallik maddənin 1 molunun onun hissəciklərinin modullaşmayan məsafədə yerləşməsi ilə parçalanması zamanı entalpiya dəyişməsi ilə müəyyən edilir:

$MX_{(b)} \rightarrow M^+_{(q)} + X^-_{(q)}$; $\Delta H^0_{qəf.ent.}$

**Neytrallaşma entalpiyası** – standart şəraitdə turşu ilə əsas arasında 1 mol su əmələ gəlməsi ilə baş verən reaksiya zamanı entalpiya dəyişməsi ilə müəyyən edilir:

$H^+_{(məh.)} + OH^-_{(məh.)} \rightarrow H_2O_{(m)}$; $\Delta H^0_n$

**Hidratlaşma entalpiyası və ya məhlulun entalpiyası** – 1mol maddənin suda müəyyən edilməyən qatılığa qədər tam həll olması zamanı baş verən entalpiya dəyişməsi ilə müəyyən edilir:

$MX_{(b)} + su \rightarrow M^+_{(məh)} + X^-_{(məh.)}$; $\Delta H^0_{hid.}$

**Rabitə entalpiyası və ya dissosiasiya entalpiyası** – qaz fazada 1 mol rabitənin qırılması zamanı baş verən entalpiya dəyişməsi ilə müəyyən edilir:

$X - Y_{(q)} \rightarrow X_{(q)} + Y_{(q)}$; $\Delta H^0_{r.e}$ $(\Delta H^0_{d.e})$

Bu prosesdə rabitə homolitik qırılır, hər bir atom əvvəlcədən cütləşmiş elektron cütündən bir elektron alır:

X:Y ⟹ X• + ∘Y

Əgər molekulda birdən çox rabitə vardırsa ( metanaoxşar çoxatomlu molekullarda) rabitələr bir birinin ardınca, ardıcıl qırılır, hər bir qırılma molekulun bir fraqmenti kimi özünü göstərir.

$CH_3 - H_{(q)} \rightarrow CH_{3\,(q)} + H_{(q)}$; $\Delta H^0_{r.e.\ 1}$
$CH_2 - H_{(q)} \rightarrow CH_{2\,(q)} + H_{(q)}$; $\Delta H^0_{r.e.\ 2}$
$CH - H_{(q)} \rightarrow CH_{(q)} + H_{(q)}$; $\Delta H^0_{r.e.\ 3}$
$C - H_{(q)} \rightarrow C_{(q)} + H_{(q)}$; $\Delta H^0_{r.e.\ 4}$

C – H rabitələrin orta entalpiyası = $\frac{\Delta H^0_{r.e.\ 1+2+3}}{4}$

Çoxatomlu molekullar üçün bu və ya digər atomlar arasındakı rabitə enerjisi bütün rabitələr arasında orta qiymət alır.

Termodinamikanın başlanğıcı və ya enerjinin saxlanması qanunu müəyyən edir ki, enerji heçdən yaranmır və yox olmur, yalnız bir formadan başqa formaya

keçir. Bu xüsusilə **kalorometriya, Hess qanunu** və **energetik tsikillər** üçün qəbul ediləndir.

**Kalorometriya:**
Kalorometrik reaksiya gedərkən:

| | | |
|---|---|---|
| İstilik | | İstilik |
| itən/qəbul edilən | = | itən/qəbul edilən |
| reaksiyaya girən sistemdə | | kalorimetrik sistem və onun içərisindəkilər |

Sistemə verilən entalpiya dəyişməsinin ($\Delta H$) qiyməti sistemə verilən kütlənin törəməsi kimi olan xüsusi istilik tutumu və temperaturun dəyişməsi ($\Delta T$) ilə hesablanır.

Yanma entalpiyası kalorometrik bonda maddənin məlum kütləsində oksigen axınınında yanması ilə ölçülür.

**Hess qanunu:** Kimyəvi reaksiyalarda entalpiya dəyişməsi reaksiyaya daxil olan maddələrin reaksiyadan əvvəlki və sonrakı aqreqat halından asılıdır, reaksiyanın getdiyi yoldan asılı deyil.

Enerjinin dəyişməsi adətən üçbucaq şəklində təsvir edilir, üçbucağın tərəfləri reaksiyanın getdiyi müxtəlif yolları göstərir. Laboratoriyada entalpiya dəyişməsini birbaşa ölçmək mümükün olmadığı halda, entalpiya dəyişməsini müəyyən etmək üçün üçbucaq şəklində sxemdən istifadə edilir.

Sxemlər əmələgəlmə entalpiyasına əsaslana bilər. Məsələn:



$$\Delta H^0_{a.g.\,(NH_3)} + \Delta H^0_{a.g.\,(HCl)} + \Delta H^0_{r.} = \Delta H^0_{a.g.\,(HCl)}$$







$$\Delta H^0_{y\,(C_2H_5OH)} = \Delta H^0_{reak.} + \Delta H^0_{y\,(CH_3-CHO)}$$

**Born - Qaber tsikli və digər energetik tsikillər**

Hess qanunu qrafik formada istənilən saf kimyəvi maddənin sıfır entalpiya səviyyəsini təsvir edən başlanğıc xəttlə təsvir edilir.

Born- Qaber tsikli ion maddələr əmələ gələn zamaqn spesifik proseslərə aiddir. Entalpiyanın müsbət dəyişməsi yuxarı, mənfi dəyişməsi isə aşağı istiqamətlənmiş oxla göstərilir.




**Energetik tsikillərdən istifadə :**

- ***Qüvvətli və zəif turşuların təbiətinin izahı üçün:***

Hidratlaşmış ionlar əmələ gəlmə entalpiyası ilə hidrogen protonuun turşu qalığına birləşməsi ilə əmələ gəlmiş rabitənin möhkəmliyini müqayisə edək: Bu turşunun qüvvətli və ya zəif oluğunun bir neçə faktorunu izah edir.




$$HA + H_2O_{(m.)} \rightarrow H_3O^+_{(məh.)} + A^-_{(məh.)}$$

Hidrogen protonunun hidratlaşması zamanı ayrılan enerji daha böyükdürsə turşu qüvvətli, azdırsa zəifdir.

- ***Oksidləşmə-reduksiya proseslərinin izahı üçün*:**

Bu halda fərz edilən maddənin oksidləşmiş və reduksiya olunmuş formalarında entalpiya dəyişikliyi müqayisə olunur. Bu prosesin getmə müddətində müxtəlif faktorların təsviri haqqında məlumat verir. Məsələn, halogenlərin oksidləşdiricilik qabiliyyətinin müəyyən edilməsi üçün mühüm faktor halogenid ionlarının hidratlaşma entalpiyasıdır.




- ***Maddənin həll olması və həll olmamasını izah etmək üçün:***

Əvvəlki müzakirələrə uyğun olaraq bunu aşağıdakı əsas vəziyyətlərə görə izah etmək olar: həll olan maddənin hissəciklərinə ayrılması zamanı entalpiya dəyişilməsinin qiyməti ilə (qəfəs entalpiyası) həlledicinin hissəciklərə ayrılması (buxarlanma entalpiyası) zamanı entalpiya dəyişikliklərini hissəciklərn birləşməsi ilə məhlulun əmələ gəlməsi zamanı entalpiya dəyişikliyini (solvatlaşma entalpiyası, suda məhlulda olduqda hidratlaşma entalpiyası) müqayisə edək :




- ***İdarə olunmayan şəraitdə reaksiyanın gedişi zamanı entalpiya dəyişməsinin müəyyən edilməsi üçün:***

Məsələn, oksidləşdiricinin təsiri ilə etanol sirkə aldehidinə qədər oksidləşir, bu proseslərdə entalpiya dəyişməsini etanolun və sirkə aldehidinin yanma parametrlərinin qiymətinə görə müəyyən etmək olar:




- ***Maddənin molekulyar formulunun izahı üçün:***

  Məsələn, nə üçün maqnezium-xloridin formulu MgCl və ya $MgCl_3$ deyil, $MgCl_2$ kimidir ?

Bu birləşmələrin hər üçünün əmələgəlməsi üçün Born- Qaber tsikli göstərir ki, $MgCl_2$ formulu digər iki formulla müqayisədə daha termostabildir.




- ***İon qəfəsindəki enerjinin hesablanması üçün*:**

  Born-Qaber tsiklindən belə nəticə çıxır ki ;

  - Bərk halda metallardan kation əmələ gəlməsi tamamilə bərk ion birləşmələrin formuluna uyğundur;
  - Anionların əmələ gəlməsi də bu cür baş verir;
  - İonlar birlikdə birləşərək ion qəfəsi əmələ gətirir.

Natrium-xloridin əmələ gəlməsinin mərhələli yolu və birbaşa reaksiyalar bərk maddənin onun elementlərindən əmələ gəlməsi entalpiyasına görə ekvivalentdir, ona görə də qəfəsin enerjisini müəyyən etmək olar.




Birbaşa yolun entalpiya dəyişməsi mərhələli yolun entalpiya dəyişməsinə bərabərdir:

Birbaşa olmayan əmələgəlmə = ionların əmələgəlməsi + qəfəs enerjisi

- ***Benzol kimi birləşmələrdə kovalent rabitə modelinin yoxlanması üçün:***

Tsikloheksatrienin quruluşu, tsikloheksan və tsikloheksadienin quruluşundan fərqlənir, çünki benzol molekulu delokallaşmış $\pi$ – rabitə sisteminə malikdir.




- Kovalent və ion birləşmələrdə rabitə modelinin yoxlanılması üçün:

Gümüş-xlorid metaldan və qeyri-metaldan əmələ gəlir və o, tamamilə ion birləşmələrə aid olmalıdır, lakin Born- Qaber tsiklindən istifadə edərək hesablanmış qəfəs enerjisinə görə onu ion birləşmələrinə aid etmək olmaz. Bu onu göstərir ki, ion modeli gümüş-xlorid üçün ödənilmir. Gümüş d- elementi olan metallara aiddir. Qeyd etməliyik ki, d- orbitallarındakı elektronlar s- və p-orbitallarındakı elektronlara nisbətən nüvəni daha az dərəcədə ekranlaşdırır. Bu o deməkdir ki, gümüş ionunun nüvəsi daha az müdafiə olunur, daha doğrusu gözlənildiyindən çox polyarlaşma qabiliyyətinə malik olur. Gümüş ionu, xlor ionunu polyarlaşdırır, ionlar arasında elektron sıxlığı yaranır. Ona görə də gümüş xlorid daha çox dərəcədə kovalent birləşmələrə aid edilir.

| Maddə | Nəzəri qəfəs enerjisi (fiziki hesablamalara görə) | Real qəfəs enerjisi (Born – Qaber tsiklinə görə) |
|---|---|---|
| NaCl | -770 | -780 |
| NaBr | -735 | -742 |
| KCl | -702 | -711 |
| | uyğunluq yaxşıdır, ion model ödənilir. | |
| AgCl | -833 | -905 |
| AgBr | -816 | -891 |
| | uyğunluq pisdir, ion model ödənilmir, kovalent rabitə özünü daha çox göstərir. | |

**Entropiya və sərbəst enerji**- nizamsızlıq ölçüsüdür, işi həyata keçirmək üçün lazım olan enerjidir.

Arktikada demək olar ki, bütün maddələr bərk haldadır. Onun hissəcikləri çox az kinetik enerjiyə malikdir və kristal qəfəsdə müəyyən nizamlılıqla və sıx yerləşmişdir. Çox aşağı temperatur şəraitində cəzbetmə qüvvələri, hissəcikləri

biryerdə saxladığından sistemin potensial enerjisi çox az olur. Günəşdə bütün maddələr qaz halındadır. Hissəciklər o qədər böyük kinetik enerjiyə malikdir ki, o, onlar arasındakı cazibə qüvvəsindən böyük olur və təsadüfi hərəkət edə bilər. Beləliklə yüksək temperaturda hissəciklər arasında nizamlılıq mövcud deyil və sistemin kinetik enerjisi çox yüksək olur.

Potensial enerjinin sistemdə nizamlılıq yaratması tendensiyası ilə kinetik enerjinin onu dağıtması arasında konkurensiya baş verir.

Entropiya – nizamsızlıq ölçüsü.

Ekzotermik proseslər (- $\Delta H$ ), hansı ki, nəticədə sistemin potensial enerjisi azalır, daha çox ehtimal olunan proseslərdir. Lakin baş verən proseslərin hamısı ekzotermik deyildir.

Nə üçün buxarlanma prosesinə oxşar endotermik reaksiyalar gedir ? Bir sıra hissəciklər onları mayedə saxlayan qüvvələri dəf etmək üçün lazım olan kinetik enerjidən çox enerjiyə malik olur. Bu hissəciklər uçuculuq qabiliyyətinə malikdir. Hər bir sistem üçün yalnız bir nizamlılıq halı, bir tamamlanmış qəfəs – məhdud olmayan sayda nizamsız hallar mövcuddur. Əgər sistemin üzərində nizamlılığa görə iş görülməsə ( öz otağınızdakı səliqə-səhman barədə düşünün) onda real olaraq sistem daha nizamsız və təsadüfi olar. Ona görə də nizamsızlıq halı daha çox ehtimal ediləndir.

Sistemin nizamsızlıq ölçüsü S simvolu ilə işarələnən entropiyadır. $0^0$ K temperaturda kristal qəfəs mütləq nizamlı olur, ona görə sistemin entalpiyası sıfır olur. Qızdırdıqda hissəciklərin kinetik enerjisi artır, hissəciklərin yerləşməsinin nizamlılığı pozulur. Deməli entropiya temperaturdan asılıdır, onun artması ilə entropiya artır.

Entropiya dəyişilməsinin müəyyən edilməsi :

Kimyəvi reaksiyalarda entropiya dəyişməsi aşağıdakı şəkildə müəyyən edilir:

$$\Delta S^0_{üm} = \Delta S^0_{sistem} + \Delta S^0_{ətraf\ mühit}$$

burada: $\Delta S^0_{sistem} = \Delta S^0_{reak.məhsulu} - \Delta S^0_{baş.\ komponentlər};$

$$\Delta S^0_{ətraf\ mühit} = \frac{-\Delta H^0 \leftarrow \quad C.mol^{-1}}{T \quad \leftarrow Kelvin\ ilə}$$

**Kimyəvi reaksiyaların getməsinin mümkünlüyü**

Yuxarıda verilən tənliyi elə yazmaq olar ki, ona əsasən kimyəvi reaksiyanın gedib, getməməsi haqqında məlumat vermək olar:

$$\Delta G = \Delta H - T\Delta S$$

Ekzotermik reaksiyalarda mənfi qiymət ($\Delta H$)

Xüsusi yüksək temperaturlarda artır ($T\Delta S$)

- $\Delta H$ mənfi qiymət aldığı ekzotermik reaksiyalar daha çox ehtimal ediləndir.
- Kiçik qaz molekulunun əmələ gəlməsi kimi proseslərdə, xüsusilə yüksək temperaturda kinetik enerjinin böyük olduğu zaman entropiya artır.
- Buxarlanmağa oxşar olan kiçik molekulların əmələ gəlməsi kimi endotermik proseslər yalnız xarici enerji mənbəyi (məsələn, Günəş) olduqda gedir.

Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək olar ki, sərbəst enerjinin mənfi dəyişməsi ilə gedən reaksiyalar spontan (sıçrayışla) gedir, sərbəst enerji qiymətinin müsbət dəyişməsi ilə reaksiyalar o zaman gedir ki, sistem üzərində xarici qüvvələrlə iş aparılsın.

**Sərbəst enerji:** Sistem enerjisini ətraf mühitə verdiyi zaman, enerjinin bir hissəsi işin həyata keçirilməsinə sərf olunur. Bu enerji **sərbəst enerji** adlanır (bəzən onu Helmholts enerjisi adlandırırlar). Sistemin enerjisinin bir hissəsi sistemin yenidən təşkil olunmasına (qurulmasına) sərf olunur və iş görmək üçün əlçatmazdır. Bu enerji **"əlaqəli"** enerji adlanır.

$$\Delta H = \Delta G + T\Delta S$$




## İstifadə edilmiş ədəbiyyat:

1. V.Abbasov, M.Abbasov, N.Abışov, V.Əliyev, G.Quliyeva. Kimya 8.ci sinif

2. M.M.Abbasov. Kimya I hissə. TQDK, Abituriyent jurnalı. Bakı, 2009, 7-9s.

*Нуриева М.С.*

**РОЛЬ ТЕРМОДИНАМИКИ В ИЗУЧЕНИИ ИЗМЕНЧИВОСТИ ЭНЕРГИИ В ХОДЕ ХИМИЧЕСКИХ РЕАКЦИЙ**

**РЕЗЮМЕ**

В статье главная цель состоит из исследования роли термодинамики во время изучения изменчивости энергии в процессе химических реакций. При этом за основу взято изучение в более чем простой форме и на высоком научном уровне изменений, происходящих в «связанных» энергиях и в свободной энергии (энергия Гельмгольца), в энтропии, энтальпии – в энергиях тех веществ, входят и не входят в химические реакции, а также при соотнесении закона сохранения энергии, в особенности, к калориметрии, закону Гесса и энергетическим циклам.

*Nuriyeva M.S.*

**ROLE OF THERMODYNAMICS IN STUDY OF THE ENERGY SUBSTITUTION DURING CHEMICAL REACTIONS**

**SUMMARY**

The goal of article is to role of thermodynamics during study of the energy substitution in the process of progressing of chemical reactions. Study in the simple form and highest scientific level was grounded in the direction of the concerning of the substitutions in the energy in the energies of the substances entering into reaction and obtained from reaction in chemical reactions- entalpias, entropias, free energies (Helmholts energy) and “related” energy, as well as law about conservation of energy to Hess law and energetic cycles.

**Açar sözlər:** Hess qanunu, kinetik enerji, kalorometriya,Helmholts enerjisi, entropiya, rabitə entalpiyası, Born- Qaber tsikli, qəfəs enerjisi

**Ключевые слова:** Закон Гесса, кинетическая энергия, калориметрия, энергия Гельмгольца, энтропия, связная энтальпия, цикл Борна- Габера, клеточная энергия.

**Key words:** Hess law, kynetic energy, calorometry, Helmholts energy, entropia, communication entalpia, Born- Gaber cycle, cage energy.